**İbrahim Yusifoğlu**



# Qovuşacaqdı...

**"Evdə qalaq, sağlam olaq"**

*Hələ sərt xəbərlə açılır səhər,*
*Hələ qəlb ovutmur qəmli halımız.*
*Günləri vururuq başa birtəhər,*
*Hələ qüvvədədi "Evdə Qal" ımız.*

*Eyvandan baxıram dalğın Xəzərə,*
*Görürəm tək-tənha qalan dənizi.*
*Çılğın qağayılar dəymir nəzərə,*
*Ağarıb dənizin mavi bənizi.*

*Bir kimsə görünmür sahil boyunca,*
*Açılan çiçəklər ətir saçmayır.*
*Arılar gülləri qucmur doyunca,*
*Qızılgül bülbülə qucaq açmayır.*

*İtirib şuxluğun sərv ağacları,*
*"Yallı" çalınmayır, "Vağzalı" dinmir.*
*Səkini dolaşan Qumru quşları*
*Bu gün kətillərə, kərdiyə enmir.*

*Görünmüş bu yerin göyərçinləri*
*Çeşmədən su içib dimdik duranlar.*
*Vardı içlərində dikbaş, şənləri,*
*Arabir otlara dimdik vuranlar.*

*Uzaq səfərlərdən dönmür gəmilər,*
*"SOS" ları yanmayır, fitləri gəlmir.*
*Dəniz kənarında gün keçirənlər,*
*Özləri yoxsa da, itləri gəzmir.*

*... Eyvandan baxıram dalğın Xəzərə,*
*Bu küskün halına yovuşacaqdı.*
*İnsan gəlişiylə, insan əliylə*
*Yenə xoş günlərə qovuşacaqdı.*

Ədalət.- 2020.- 2 may. S. 9.